8 sentyabr / 2020

ƏVƏZ MAHMUD LƏLƏDAĞ - 85

# DAĞLAR, VƏTƏN AMANATI



Flora XƏLİLZADƏ,
Əməkdar jurnalist
Prezident təqaüdçüsü

**Hazırda Sumqayıtda yaşayıb-yaradan Əvəz Mahmud Lələdağ təkcə Ağdü kəndinin, Qarakilsə bölgəsinin deyil, bütövlükdə Zəngəzur mahalının sayılıb-seçilən oğullarından, sinəsi şeirlə döyünən söz-sənət adamlarından biridir.**

Sumqayıtda müxtəlif məktəblərdə direktor vəzifəsində çalışan Əvəz Mahmud Lələdağ 35-ə yaxın kitabın, 585-dən artıq elmi-publisistik-metodik yazının müəllifidir. Onun pyesleri H. Ərəblinski adına Sumqayıt Dövlat Dram Teatrında tamaşaya qoyulub, televiziya ekranlarında səhnələşdirilib. Şairin poeziya aləmi ilə tanış olduqda duyursan ki, onun yaradıcılığının vətən həsrəti sarı sim kimi keçir. Ötən günlərin nisgili müəllifi xiffət içində göynədir. Bəzən də şairin şeirlərində dəsti-Şəhriyar xətti, ənənəsi duyulur:

***Kəklikotu, qantəpəri dərərdik,
Gündöyəndə seyrək-seyrək sərərdik,
Əvəliyi qız saçıtək hörərdik,
Vətənsiz beləcə saraldım, soldum,
Təbibsiz, loğmansız, dərmansız oldum.***

Bu bağlılığın, mənəvi yaxınlığın əsas kökü şair ürəyində iz salmış yurd həsrətidir. Bir vaxtlar öz soydaşlarının həsrati ilə qovrulan və uşaqlıq nisgillarini də bu dərdin üstünə əlave edərək "bir uçaydım bu çırpınan yelilə", deyən Şəhriyar həsrətinin davamı kimi Əvəz Mahmudun könül sarsıntılan adamın varlığını titrədir, ruhunu dara çəkir:

***Əriməzdə qarım qaldı,
Dağlar, qar amanatı,
Yarım gəldi, yarım qaldı,
Dağlar, yarım amanatı.***

Üz-üzə , göz -gözə dayanan ," lələ köçüb yurdu qalan" dağların əl-ətəyini gözləyən vəhşi çöl çiçəkləri qərib -qərib yollara baxırlar .Dağdağan ağacına qonmuş yaylım quşları qəfil açıla güllə səsindən diksinirlər.Başı qarlı zirvələr elat yollarının sükutuna dözə bilmirlər.Sinəsi boyu şırımlanan " göz yaşları" yla yas saxlayırlar.Bu dağlar yetim qalmış dağlarımızdı, o obalar dədələrimizin diz qatdadığı müqəddəs yerlərdi. Qədim türk torpaqlarımızda indi babalarımızın incidilmiş ruhu dolaşır.Ə.M.Lələdağ doğulduğu Zəngəzur ellərindən çoxdan ayrılıb. Amma " Tale məni buludlara qoşaydı" həsrəti xalqımızın başına gətirilən müsibətlərdən sonra göyərib.

***Bu qəflətdən ayılmayıb çoxumuz,
Yaman gözə bata bilmir oxumuz.
Nə müddətdir ərşə çıxıb yuxumuz,
Qan ağlayır ocaq daşı , yurd yeri.***

Qan ağlayan təkcə ocaq daşı , yurd yeridir mi? Şair zəncirdə qalan itlərin ayağı çıdarlı, kişnər atların , diri - diri yandırılıb kömürə döndərilmiş türk balalarının faciəsini mısra - mısra yaşayır. Havadarlarının köməyi və fitvasıilə təpədən - dırnağa qədər silahlanmış faşist erməni quldurlarının xalqımıza qarşı apardığı soyqırımı siyasətini lənətləyir.

İnsan nə qədər ki,doğulduğu yurdundan uzaqdir,beşiyinə, ilkinliyinə əli yetmir, doğrudan da, yarımçıqdır tam deyil. Əvəz müəllimin bu can yanğısını ancaq içində yurd həsrəti, Vətən dərdi çəkənlər duya bilər.Onun şeirlərində elə kövrək, həzin misralar var ki, oxuduqca sanki doğma yerlərin ətrini duyur, gözəlliklərini görürsən.

Onun şeirlərində bulaq suyu qədər saf, təbii bir axar var.

***Kəndimiz yuxuma girmişdi gecə,
Əlmərdan bulağı həzin axırdı,
Babamınsa ruhu Qızılqayadan,
Dayanıb nifrətlə mənə baxırdı .***

İndi gəl bu ittihamdan sonra döz, yaşa! Eh, yaşamaq deyil ki, bu, qardaşım, üzülməkdir, dirigözlü ölməkdir.

Əvəz Mahmud Lələdağın yaradıcılığında bu dərdlər ela təsirli dil açıb ki, itirilmiş yurd yerlerinin bütün mənzərəsi onun poeziyasında olduğu kimi əks edilib. Omrünün müdriklik çağını yaşayan Əvəz müəllim sanki bir yolayrıcında dayanaraq özündən, onu əhatə edan insanlardan, üzləşdiyimiz bəlaların şahidlərindən, bir sözlə, hamıdan və taledən hesabat istəyir.

Nə idi bizim günahımız? Bu qədər uzun sürən ayrılıq olar? Amma nə vaxtsa yollarını toz basmış Vətənə dönəcəyimiz gün gələcək.

Əgər o yerlərin-Zəngəzurun, Göyçənin. Dərələyəzin çiçəyi, gülü, dağı, dərəsi, çeşməsi, gədikləri yadımızdan çıxmayıbsa, hər gecə yuxuda dağılmış yurd görürüksə, bulaqlardan su içiriksə, üzümüz dağlara sarıdırsa, ruhumuz orada dolaşırsa, demək, unudulmayıb Vətən. Məmməd Araz tebirine söykənsək, demək, vətən eşqimizə hələ qar yağmayıb. İnsanlar vəfasızdır bu dünya kimi. Ona görə də Vətəni əzəldən səngərli olanlara tapşırıb deyirik: dağlar, Vətən əmanəti! Zəngəzur mahalının Ağdü kəndində anadan olan, lakin hazırda Sumqayıtda yaşayan, ruhu ilə cismi didərgin düşən Əvəz Mahmud könül dünyasının ağrılarını misralarda göyərdərək ötən günlərinə tor atır. Tor hələ ki, bomboşdur. Bu nisgil misra-misra dilə gəlir:

***Ocaq, daşın olammadım,
Pir, başına dolanmadım,
Qoynunuzda qalammadım,
A yaylaqlar, a yaylaqlar.***

Yayda yaylaği, qışda oylaği. yazda seyrengahi olan dağlar Əvəz müəllimin poeziyasında ele mağrur və əzəmətlidir ki.. Çox arzulayardıq ki, şairin yeni doğulacaq şeirlərdə həsrət notlarn duyulmayaydi. Yurda qayıdışında doğulmuş sevinc dolu şeirlərini oxuyaydıq. Kaş bunlar xəyal olmayaydi. Bir gün ellikcə yığışıb Əvaz Mahmud Lələdag göz aydınlığı verərdik. Deyərdik ki, çəkdiyimiz intizara son qoyuldu. Nola, Tanrım, yurda qayıdış havasını ürəyimizin kökündəki qəmkədəri küləklərin qanadına yükləsin. "Vətən, yollarının tozu olaydıq" ahını bir daha çəkməyəydik. "Vətən, görüşünə gəlirik!",-deyə hayqırardıq.

Əvəz Mahmud Lələdəğ haqqında danışmaq mənim üçün Vətəndən söz açmaq deməkdir. Çünki Əvəz Mahmudun təbiətində o yerlərin saflığı, təmizliyi, əzəməti, vüqarı və xeyirxahlığı əks olunur.

## Dağlar məni

*Ayrıla bilmirəm şirin xəyaldan,
Çəkir ağuşuna o dağlar məni
Sinəmə çəkilən dağ-düyün oldu
Yamanca incidir o dağlar məni*

*O dağların hər yerində izim var,
Laləsinə, nərgizinə sözüm var
Boynu bükük bənövşədə gözum var
Ona dönük çıxsam o, dağlar məni*

*İllər ötdü gedəmmədim Vətənə
Söz demədim hər yanımdan ötənə
Yazıq Əvəz yaman düşdü çətinə
Yanar bu halıma, od ağlar məni*

## Hardan alım

*Zirvəsində qartal gəzən,
O dağları hardan alım.
Buz suları dik göynədən,
Bulaqları hardan alım.*

*Yaddan çıxmır Nuhun dağı,
İşıqlının kərə yağı.
Gicirtkanı , quzqulağı
Yığan yarı hardan alım.*

*Nə çovğun var , nədə sazaq
Cadarlanıb ana torpaq.
Lopa -lopa , papaq -papaq,
Yağan qarı hardan alım.*

*Əvəz burda gül gəzirsən,
Ləpənənən göl gəzirsən.
30 ildi el gəzirsən,
Xilaskarı hardan alım.*

## Nə qaldı

*Aylar keçdi, illər keçdi,
Sizə nə qaldı, nə qaldı,
Səksən beşi verdim yelə,
Yüzə nə qaldı, nə qaldı*

*Afat yeli əsdi, getdi,
Soyuq gəldi, isti getdi,
Ocaq söndü, tüstü getdi,
Közə nə qaldı, nə qaldı.*

*Dünyada dərd havası var,
İçimdə qurd yuvası var ,*



*Xeyirlə şər davası var
Təzə nə qaldı, nə qaldı.*

*Harın gəzdi harın-harın
Tapdaladı düz ilqarın
Hərif tixdi elin varın,
Bizə nə qaldı, nə qaldı.*

*Badanlar incidir bizi,
Silib atır izimizi.
Əvəz çox axtardı düzü
Düzə nə qaldı, nə qaldı.*

## Yenə qayıdaydım

*Yenə qayıdaydım o doğma kəndə,
Qapını üzümə anam açaydı.
Sevinci,fərəhi görəndə məndə,
Kədər sarsılardı, hicran qaçardı.*

*Açıb qollarını qucardı məni,
Telimdə gəzərdi ana əlləri.
Baxıb seyr edərdim çölü-çəməni.
Qayğısız görərdim bizim elləri.*

*Yaxın dostlarımla, sirdaşlarımla
Çıxaydım yenə də bulaq başına.
Gəzəydim uşaqlıq yoldaşlarımla,
Üzümü qoyardım Səhəngdaşına*

*Oğlanlar çıxardıq kəndin qaşına
Gözəl görünərdi Arzubulağı
Səhəng söykəyərdi Səhəngdaşına
Bu kəndin qızları hər axşamçağı.*

*Baxışlar, duruşlar, yerişlər təzə
Gülüşlər süzülüb suya axardı
Xumar gözlərini tumarlandırıb
Qızlar hərdən dönüb bizə baxardı.*

*Nələr oxuyardıq baxışlarda
Lalə yanaqlarda, lalə yanardı
Biz mərmər sinədə, narı görəndə,
Məhəbbət eşqimiz alovlanardı.*

*Gör məni hayana apardı xəyal,
Əridən olmadı dünya dərdimi,
Gülə bürünərdi o gözəl mahal
Görən o güllərdən Əvəz dərdimi?*

## Vətən

*Qoynunda and içdim, sədaqət andı,
Könlüm hər guşəni bir cənnət andı.
Eşqimin şamları əlinlə yandı,
Gül açdı xoş arzum diləyim , Vətən.*

*Ulduzu sayrışan göyün var sənin,
Yaxşıdan savayı nəyin var sənin.
Harda bərabərin ,tayın var sənin
Sinənə söykənib kürəyim , Vətən .*

*Sən məndən can istə verim can sənə,
Əvəz dönük çıxmaz heç zaman sənə .
A mehriban ana , mən qurban sənə,
Sənsiz buza dönər ürəyim , Vətən !*

## Yenə qayıdaydı o yaz gecəsi

*Yenə qayıdaydı o yaz gecəsi ,
Yenə görüşünə gələydim , gülüm .
Yenə başlayaydı o naz gecəsi ,
Sevinəydim gülüm güləydim , gülüm .*

*Yenə qayıdaydı o yaz gecəsi ,
Yenə nurlanaydım baxışlarında .
Ömrümün o gözəl ayaz gecəsi ,
Qəlbimə axaydı göz yaşların da .*

*Yenə qayıdaydı o yaz gecəsi
Mənə zillənəydi o qoşa ulduz.
Xoşbəxt taleyimin o saz gecəsi ,
Baxıb qısqanaydı bizi qonşu qız.*

*Yenə qayıdaydı o yaz gecəsi ,
Saçların üzümə kölgə salaydı.
Sənə ürəyimi açanda , gülüm
Yarpaqlar ahəstə pıçıldayaqdı.*

*O aylı gecənin ulduzlarından ,
Qopardıb telinə düzəydim , yenə
Şikarım olaydın ovçun olaydım ,
Gəlib keçidini kəsəydim yenə.*

## Qadir Allah

*Qadir Allah , qaytar məni kəndimə ,
Bir gözəlin üzüyünə qaş olum
Gedim çıxım öz bərəmə ,bəndimə,
Tər güllərin ləçəyində yas olum.*

*Orda göz açmışam fani dünyaya
Oranın payızı , qışı gözəldir.
Orda boylanmışam Günəşə Aya
Oranın torpağı , daşı gözəldir.*

*Orda cücəribdi ilk məhəbbətim
Sevdimin qanadı sərtləşib orda
Orda şirinlənib sözüm söhbətim
Nənəm nənələrlə dərdləşib orda*

*Bir zaman yarımçıq naşı olanlar
Qaşı düzəldəndə gözü tökdülər
Təkcə öz hayına qalan nadanlar
Üstünə " Qaçqınlıq" tozu tökdülər.*

## Qisas qiyamətə qalmasın

*Mən nəyə qadirəm , bilmirəm nəyə ,
Bir ovuc torpaqda ola bilmədim
Mənim haqqım yoxdu deyib gülməyə,
Yurdu yağılardan ala bilmədim.*

*Məni bağışlamaz Dədə Ələsgər,
Hələlik ustadım intizardadı .
Məni bağışlamaz açılan səhər ,
Ulu Zəngəzurum hələ dardadı.*

*Hələlik çox yerdə göyərmir sözüm,
Hələlik boy atmır bağımda bitən
Özüm qalxmalıyam Cihada özüm
Yadların əlində didilir Vətən!*

*Canımı verəcəm yüzünə qurban ,
Qoy yüzü yaşasın yurd -yuvasında.
Yaxın gəl el oğlu , gözünə qurban,
Bəsdir yaş axıtdıq elin yaşında.*

*Əsgər toqqaını bir az da bərkit
Götür tüfəngini döyüşə gedək
Vətəni torpağı namusu dərk et ,
Nətavan xanımla görüşə gedək.*

*Hoydu igidlərim düşmənə qarşı ,
Qisas qiyamətə qalmasın gərək .
Vətən torpağının bir qarışı da,
Yağı tapdağında olmasın gərək.*

## Qayıt

*Hey deyirsən ora gedim , ay bala ,
Bu çağımda hara gedim , ay bala .
Gəl çiynində gora gedim , ay bala ,
Ağrın alım üzü sulu qayıt gəl.*

*Qayıt kəndimizə yurd talan olur,
Silahlı əsgər ol cən də bu gündən .
Çiçəkli çəmənlər yağıya qalır ,
Səni bağışlamaz anamız Vətən.*

*Səni bağışlamaz bu torpaq , bu su,
Biganə olmaqdan əl götür oğul.
Qarğıya bilmirəm sözün doğrusu,
Yerdən meyidimi gəl götür, oğul.*

*Bu torpaq müqəddəs anadır ana,
Bu torpaq can verir canlıya cana.
Dərdin alım , yubanmadan qayıt gəl .
Pir deyib sən yapış Azərbaycandan.*

*Bu ana harayı çatmırmı sənə,
Elin dar günüdür , yaman günüdür.
Ölmək şərəflidir Vətən yolunda.
Tez qayıt , tez qayıt , aman günüdür.*